

# Maskadan istifadə barədə

Hazırda mövcud olan məlumatları nəzərə alaraq, COVİD-19 virusunun insandan insana keçmə yolunun hava-damcı, təmas və əşyalar vasitəsi ilə olduğu güman edilir.

Respirator xəstəlik simptomları (məsələn, asqırma, öskürək və s.) olan insanla sıx (1 metrə qədər məsafədə) təmasda olan istənilən şəxs potensial infeksiyalaşmış kiçik damcılarla (aerozol) ilə virusa yoluxma riskinə məruz qalır.

Tibbi maskalar yastı və büzməli olmaqla (bəziləri fincana bənzəyir) cərrahi və ya prosedur maskalardır.

## *Ümumi tövsiyələr*

Tibbi maskalardan istifadə, yoluxmuş rayonlarda bəzi respirator xəstəliklərin, o cümlədən COVİD-19 virusunun yaratdığı xəstəliyin yayılmasını məhdudlaşdırmaq üçün görülən profilaktik tədbirlərdən biridir.

Maska, üzlə maska arasında boşluq qalmadan, burun və ağızı örtmək şərti ilə taxılmalıdır.

Maska nəm olduqda yenisi ilə əvəz edilməlidir və birdəfəlik maskalardan təkrar istifadə etmək olmaz.

## *Maskanı çıxarmaq üçün:*

-maska arxa rezinlərdən tutulmaqla (maskanın ön hissəsinə toxunmadan) çıxarılmalı və dərhal tullantı üçün ağzı bağlanan konteynerə atılmalıdır.

Qeyd etmək lazımdır ki, yalnız maskalardan istifadə etməklə lazımi müdafiə səviyyəsini təmin etmək mümkün deyil və digər daha vacib tədbirlər həyata keçirilməlidir. COVİD-19 virusunun insandan insana ötürülməsinin qarşısını almaq üçün maska taxmaq, əl gigiyenası və digər tədbirlər birləşdirilməlidir.



## *Respirator xəstəlik simptomları olmayan şəxslər*:

-insanların toplaşdığı və izdihamlı qapalı yerlərə getməkdən çəkinməli;

-COVİD-19 infeksiyasının respirator əlamətləri (məs, öskürək, asqırma) olan istənilən şəxslə ən azı 1 metr məsafə saxlamalı;

-əllər çox çirkli deyilsə spirt tərkibli vasitələrlə, nəzərəçarpan dərəcədə çirkli olarsa sabun və

su ilə yumaqla onların gigiyenik təmizlənməsini həyata keçirməli;
-öskürək və asqırma zamanı ağzınızı və burnunuzu kağız salfetlə və ya dirsək büküşü ilə örtməli, istifadədən dərhal sonra salfeti atmalı və əlləri yumalı və ya dezinfeksiya etməli;
-təmiz olmayan əl ilə ağız, burun və gözə toxunmamalıdır.

*Respirator xəstəlik simptomları olan şəxslər:*

-tibbi maska taxmalı, qızdırma, öskürək və tənəffüsün çətinləşməsi baş verərsə mümkün qədər tez tibbi yardım üçün müraciət etməlidir.






## Maskadan istifadə barədə

Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrindən istifadə olunmuşdur

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
Respublika Gigiyena və Epidemiologiya Mərkəzi
Publik hüquqi şəxsi

# Maskadan istifadə barədə

